# Ölümü göz önünə almışdı



**"Bir an da olsun o məşum gün yadımdan çıxmır. O gün hava tutqun idi. Günortadan sonra göy üzünü tamamilə qara bulud almışdı. Nə baş verdiyini anlaya bilmirdim. Sanki havam çatışmırdı, boğulurdum. Telefonumuza gələn zənglərə də, qapımız döyüləndə də xəbər gözləyən adam kimi qapıya qaçırdım. Atam, anam evdə idi, bir Çingiz yox idi. Onda indiki kimi mobil telefon da yox idi ki, zəng edib qardaşımdan xəbər tuta biləydim. Axşam oldu, amma Çingiz gəlmədi... Axtarmadığımız xəstəxana, meyitxana qalmamışdı, qardaşımı tapa bilmirdik".**

Deyirlər, bir qədər keçdikdə dərd yüngülləşir, yara qaysaq bağlayır. Amma elə yaralar var ki, yeri bir ömür sağalmır, qan verir. O dəhşətli faciədən bizi 30 illik zaman ayırır. Sanki dünən olubmuş kimi Aida xanım olanları xatırlayaraq göz yaşı içərisində boğulur. Olub-keçənləri o bədbəxt hadisə baş verdiyi gündə olduğu kimi nəql edir.

1995-ci il oktyabrın 28-də saat 17:50-də Bakı metrosunda bəşər tarixinin ən dəhşətli qəzalarından biri baş verdi. "Ulduz" stansiyasından "Nəriman Nərimanov" istiqamətində hərəkət edən metro qatarında qəfil yanğın başladı. Bir anın içində alov vaqonu bürüyərək insanların canını aldı. Sintetik materialların yanmasından yaranan tüstü, qoxu, vahimə - bütün bunlar cəhənnəmi xatırladırdı. Hər kəs bircə şey haqqında düşünürdü: bu dəhşətli alovun içindən canını necə xilas edə bilər?

Sərnişinlərin arasında əynində zabit mundiri olan bir nəfər vardı. O, ölümdən qaçmırdı, ölümün üstünə yeriyirdi. O düşünmürdü ki, bununla ölümsüzlüyə qovuşacaq. Bir məqsədi vardı - insanları xilas etmək. Birini, ikisini, üçünü... Təhlükəsiz yerə çıxarır, yenidən alovun, tüstünün, zəhərli qazın içinə atılırdı. Həm də Çingiz tək deyildi. Qəza baş verən vaqonda onunla birlikdə olan kursantlar da insanları xilas etməyə səfərbər edilmişdi.

O dəhşətli gündə 289 nəfər həlak olmuş, 270 nəfər yaralanmışdı. Əgər o gün sərnişinlər arasında Çingiz Babayev və onun kursant yoldaşları olmasaydı, qurbanların sayı qatqat çox olardı... Faciəyə səbəb qatarın tuneldə alışması, ölümün çox olmasına isə səbəb xilasetmə əməliyyatının yetərsizliyi idi.

Aida xanım deyir: "Qardaşım işdən çıxanda iş yoldaşları onu öz avtomobillərində gətirmək istəyiblər. Hətta deyiblər ki, düz evinizə qədər aparacağıq, razı olmayıb. Deyib ki, metro ilə gedəcək. Müharibəni başa düşmək olur. Bilirsən ki, qarşında, ətrafında düşmən var. Müharibədə ya sən öldürəcəksən, ya da səni öldürcəklər. Xilas olmaq şansı da var. Bu isə qəzadır, hadisədir. Bu hadisədə hamı canını xilas etməyə çalışır. Başa düşmək olar ki, insanlıq naminə həyatını təhlükəyə atıb yaxınlığında olan bir qocanı, bir uşağı da xilas etmək olar. Amma bir adam ki, təkrar-təkrar özünü odun, alovun içinə atıb insanları xilas edirsə, bu, artıq qəhrəmanlıq deyil, missiyadır. Təsəllim ondadır ki, o missiyanı qardaşımın boynuna Tanrı qoyub".

Çingiz Adil oğlu Babayev 1964-cü il oktyabrın 2-də Bakı şəhərində anadan olub. Bakıdakı 20 saylı orta məktəbdə təhsilini başa vurduqdan sonra Azərbaycan Politexnik İnstitutunda ali təhsil alıb. 1986-cı ildə ali təhsilini başa vuraraq "Azərelektroterm" zavodunda əmək fəaliyyətinə başlayıb.

Bacısı Aida xanım söhbətə davam edir: "Çingiz məndən 7 yaş böyük idi. Çox çalışqan, həm də qayğıkeş idi. Uşaqlıq illərim, Çingizlə birgə keçirdiyim günlər ömrümün ən gözəl günləri idi. Çingiz çox maraqlı adam idi. Daim öyrənməyə üstünlük verən insanlardan idi. İngilis dilini mükəmməl bilirdi. 1992-ci ildə Çingiz Yasamal rayon Məşğulluq Mərkəzində aparıcı mütəxəssis işləyirdi. Həmin ilin avqust ayı idi. Evə gələndə gördük ki, əynində hərbi forma var. Evdə ataanama deməmiş könüllü olaraq Milli Ordu sıralarına yazılmışdı. Bir müddət Goranboy rayonu istiqamətində hərbi hissələrin birində qərargah rəisi vəzifəsində çalışdı. Sonra onu Bakıdakı hərbi hissələrin birinə dəyişdirdilər. 1994-cü ildə isə Azərbaycan Müdafiə Nazirliyinin sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Liseyə keçirildi. Yaxşı xidmət etdiyinə, təlim-tədris sahəsində qazandığı yüksək nəticəyə görə komandanlıq tərəfindən "Şah İsmayıl Xətai" fəxri fərmanı ilə təltif edilmişdi. Çingiz elə bir adam idi ki, o, hər hansı hadisəyə seyrçi qala bilməzdi. Əgər ətrafında bir hadisə baş verərdisə, mütləq o da orada olmalı idi. Özünü düşünən adam deyildi. Metro hadisəsində də belə oldu. Ata-anamı, məni yox, fəryad qoparan, kömək istəyən insanları düşündü qardaşım. Hadisədən bir neçə gün sonra cənazəsini Binəqədi xəstəxanasının meyitxanasından tapdı anam. Yanığı yox idi, zəhərli tüstüdən boğulmuşdu. Subay idi. 31 yaşında özünü qurban verdi".



Çingiz Adil oğlu Babayev ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ən yüksək mükafata - "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb. Bakı metrosunun "Ulduz" stansiyasında abidə kompleksi, C.Naxçıvanski adına Hərbi Liseydə isə büstü qoyulub. Oxuduğu orta məktəbə və yaşadığı binanın önünə qəhrəmanın xatirə lövhəsi vurulub.

Aida xanım deyir ki, Çingizin ən çox xoşladığı qadın adı Mələk idi. Bir qızı var, adını qardaşının şərəfinə Mələk qoyub. Gözüyaşlı, ürəyi dərddən qubar bağlamış bacı susur. Sanki ürəyində nə isə pıçıldayır. Yanaqlarına süzülən göz yaşını silib söhbətə davam edir: "Oğlum olsaydı, onun adını verməzdim. Çingizə mərhum nənəmiz vaxtilə zabit olmuş qardaşının adını qoymuşdu. Nənəmin qardaşının da ömrü qısa olmuşdu, elə Çingizin ömrü qədər. Bu ad bizim üçün düşərli ad deyilmiş… Qoy onun xatirəsi qəlbimizdə belə yaşasın. Qızıma deyirəm ki, sənin adını sən dünyaya gəlməzdən əvvəl dayın verib".

Çingiz sadə ziyalı ailəsində doğulmuşdu. Anası Sədət xanım M.F.Axundzadə adına Milli Kitabxanada çalışırdı. Atası Adil müəllim də, anası da, həmişə övladlarına "Vətən, xalq, dövlət üçün faydalı vətəndaş olun!" tövsiyəsini vermişlər. Bu gün Çingiz adı xalqımızın qəhrəmanlıq tarixinə fədakarlığın rəmzi kimi düşən nadir insanlardandır. Hələ neçə illər keçəcək, onun xilas etdiyi insanlar, onların nəvələri, nəticələri, bir də qədirbilən xalqımız Çingizin adını, fədakarlığını unutmayacaqlar. Çingiz Babayev - ölümü öldürən bir qəhrəman, əbədiyyətin yolçusu kimi yaddaşlarda əbədi olaraq yaşayacaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 29 oktyabr (№ 231).- S.18.